# *BABA BƏY ŞAKiR*

SEÇiLMiŞ

ƏSƏRLƏRi

WWW.KITABLAR.COM

*Azərbaycan dicital kitab evi*

# *Baba bəy şakir*

***Seçilmiş əsərləri***

http://www.kitablar.com
http://www.kitablar.org/

Baba bəy Məhəmmədəli bəy oğlu Sarıcalı-Cavanşir 1770-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Mükəmməl mədrəsə təhsili almışdı. Ana dili yanaşı bir neçə şərq dillərini də bilirdi. Şakir təxəllüsü ilə ruhsar şeirlər yazırdı. Baba bəy Pənahəli xanın böyük qardaşı Fəzləli bəyin nəvəsidir. O, Mehribanlı Baba bəy kimi də tanınır. Qasım bəy Zakir ilə həm dost, həm də qohum idi. Baba bəy Şakir 1844-cü ildə vəfat edib.

**BABA BƏY ŞAKİR GƏNCÜM AĞAYA**

Gəncüm ağa, vilayətin dərdini,
Əlbəttə, get sahibkara ərz elə!
Biz burda qorxudan deyə bilmirik,
Sən utanma, aşikara ərz elə.
Özün divanbəyi, tutduqca dilin,
Gərəkdir deyəsən dərdini elin,
Tutalım padşaha çatmayır əlin,
Qubernata, ya sərdara ərz elə!
Dağıtdı ölkəni qüttaüttəriq,
Bir ləhzə qovğadan oluruz fariq,
Bir tərəfdən qanlı, bir yandan sariğ
Salıbdır bizləri dara, ərz elə!
Qorxudan malmızı güdə bilmirik,
Ərzmizi bir kəsə edə bilmirik,
Bu kənddən o kəndə gedə bilmirik,
Elə kəsilibdir ara, ərz elə!
Qoyublar iş üstə hər ağlıkəmdən,
Təvəqqe eləyir görən adəmdən,
Qalmışıq müstəğrəq dəryayi-qəmdən,
Çıxaran yox bir kənara, ərz elə!
İndi xalq içində əcəb nizam var,
hesab tərk olub aləm-aşikar,
Oğru mal sahibin edər günahkar,
Yetişəndə murovlara, ərz elə!
Soyurlar adamı yoxdur yasağı,
Geyinib müstəğrəq, minib qısrağı
Qapıvın ağzında günorta çağı
Çəkiliblər bir kənara, ərz elə!
Olub düşməni-can həqiqi dostlar,
Ehtiyatən hərə bir yabı bəslər,
O sən görən mallı-dövlətli kəslər
Möhtac olub bir dinara, ərz elə!
Sanmın bular elkə fikrinə qalır,
Kəbə, cecim yığır, məxaric alır,
Gələn tək mahala yetəni çalır,
Dönüblər murovlar mara, ərz elə!
Olub iş sahibi hər rexi yava,
Gədəyə-güdəyə veribdir hava.
Tərk olmaz mərəkə, kəsilməz dava,
Düşmüşüz, yanıruz nara, ərz elə!
Qorxuram naçalnik düşə böhtana,
Çünki xəlqi-aləm yetibdir cana,
Baş götürüb gedək hərə bir yana,

Qoymasa, bu karü bara ərz elə!
Gəl sənə göstərim yerin işlərin,
Dərin dəryalardan dərin işlərin,
Deməк olmaz yüzdən birin işlərin,
Bildiyindən sən bir para ərz elə!
Nə oğru, nə xain, nə hiyləgəriz,
habelə vətənin tərkin eyləriz,
Ellik ilə baş ketürüb gedəriz
hər birimiz bir diyara, ərz elə!
Qoynunda burnotu, əlində çəlik,
Danışsın mərdanə koxa və məlik,
Ya bizləri tamam tutsun naçalnik,
Ya eyləsin dərdə çara, ərz elə!
Şuşalı yerimi aldı zor ilən,
Çıxmadı, nə qədər ərzə verdim mən,
Qarabağı necə eyləsin vətən
Mənim kimi günü qara, ərz elə?!
Müxtəsər ki, çıxıb ölkənin şiti,
Sübhədək qovurub yeyirlər əti,
Qarabağın olan malı-dövləti,
Çəkildi Şirvana, Cara, ərz elə!

## İMƏRLİ ƏMİRASLANIN HƏCVİ

Ağlayın qan, Cavanşir Əmiraslan gəlir,
Mərdü mərdanə olub əzimi-meydan, gəlir,
Taxmağa şişə sizi, etməyə büryan gəlir,
Mələkül-mövt kimi almaq üçün can gəlir,
Mədəni-lafü gəzaf, hərzəvü hədyan gəlir.
Cümlə əsbabi-zənini satıban tatə verib,
Min beş yüz manat edib cümlə qəməndatə verib
Götürübdür o da bir hökm bu bədzatə verib,
Rəxtixabın da deyirlər ki, satıb atə verib,
Minibən qapı-qapı etməyə cövlan gəlir.
Ərzə verdi o qədər kari dürüst oldu genə,
Aləmin heyvərəsi, yanşağı bu hərzə çənə,
Gündə min yol danışır, kimsəni qoymaz ki, dinə
Həstü nistin Qalada məsrəf edib ...zənə,
Vay sizin halınıza, olubdur üryan, gəlir.
Gündə yüz dəfə nahaq yerə yalan and içən,
Ağlı kəm, beyni gedək hər daşın ardınca qaçan,
Öz halalını qoyub, hər gecə bir qapı açan,
Düşdüyü evi yıxıb hər yediyi qaba
Texmi-xər, mədəni-şər, madəri-şeytan gəlir.
Yığılın, bu ki gəlir, qəsd edəcək canə, gedin,
Durmayın bir də qılın əzmi-divanxanə gedin,
İş dürüst olmasa, ordan hərə bir yanə gedin,
Kimi-Tehranə, kimi xaki-Xorasanə gedin,
Urusun denşiki tək alıbdır fərman, gəlir
hərzəguluq bularə rəsmdir əvvəl başdan,
Gündə yüz kərə yalan barə qoyarlar döşdən,

Munda yox şərmü həya, çünki çıxıbdır işdən,
Tarı şahiddir özü kim, bu xəta görmüşdən
Elə bir mən deyiləm, aləmə nöqsan gəlir.
Ey Kolanı, yanıram mən sizin əhvalınıza,
Qəmər Əqrəbdə imiş, ilan çıxıb falınıza,
Mindiribdir köpəyi qısqırıban dalınıza,
Qapınızda nə ki, var, qəsd edəcək malınıza,
Söyəcək ardınızı, sonra sizə dan gəlir.
Yenə nayiblik ona çünki yetişdi möhkəm,
Dəxi bundan belə heç kimsənə olmaz xürrəm,
Yer ilə göyün arasını tutubdur matəm,
O basandan bəri bu xalqın arasına qədəm,
hər yerə düşsə yolu naləvü əfğan gəlir.
Lal olsun selə Talıb kimi zal əhli tamam
Qılmasın qal bu gündən belə qal əhli tamam,
Ağlasın onların əhvalına hal əhli tamam,
Ruzi-aşuradı bu, sanki mahal əhli tamam
Baş açıq, yalın ayaq, didəsi giryan gəlir.

## MEHDİ BƏYİN HƏCVİ

BABA BƏY ŞAKİR QARABAĞLI MEHDİ BƏYİN HƏCVİNDƏN BİR PARÇA

Bu neçə kar idi saldın araya, sağ olma.
Qoşulub hər dəliyə sən dəxi sarsaq olma,
Ehtiyat ilə dolan, mürşidinə ağ olma,
Sən də atan kimi çox hərzəvü yanşaq olma,
Ey xətadidə, uşaq həcv edəməz pirani.
Mirzə Adıgözəl ilə, bəli, bundan sabiq,
Əmiraslan idi bədkar, ləvəndü fasiq,
O idi mülki-Qarabağda həcvə layiq,
İndi nahaq yerə bu sürçək ayaq nabaliğ,
Eylədi məhz fəramuş Əmiraslani.
Bir deyən yoxdu vilayətdə ki, oğlan, sənə nə,
O cavanşir Cavanşir Əmiraslan sənə nə,
Eylədi mədh onu, ya söylədi hədyan, sənə nə,
Lənət olsun sənə, ey şairi-meydan, sənə nə -
Ki, deyirlər sataşır hər yetənə filani.
Yetmiş idi mənə çoxdan şüəralıq xəbərin,
Gözləyirdim ki, haçan ta ola zahir əsərin,
İndi əfsanən ilə oldu müşəxxəs hünərin,
Nə təəccüb yeri var munda, elə töxmi-xərin,
Olur, əlbəttə, sənin kimi münasib xani.
Eşşəyin gər axurun sim ilə təmir edəsən,
Qarnını kişmiş ilə şamü səhər sir edəsən,
Çulunu atlasü ya tirmeyi-Kəşmir edəsən,
Zəri-xalisdən ona noxtavü zəncir edəsən,
Qədrü qiymətdə yenə atdan olur ərzani.
Demək olmaz üzünə çox adamın hər sezünü,
Çoxları pərdə çəkib, sirlərin örtər üzünü,

Töxmi-Kəbirli gərəkdir danışa xər sözünü,
Ağzına alma, gədə, sən zərü zivər sözünü,
Düşsə hər yerdə sözü sal yadına palani.
Təni-müflislik edibsən mənə sən, ey əclaf,
Bu sözü bir də desən, mən cıraram ağzını saf,
At ilə eşşək edə bəhs, deyil, bu, insaf,
Xəri-İsa edə gər Məkkəyə yüz kərrə təfav,
Əmri-müşkildi tapa mərtəbeyi-insani.
Nə münasib alasan zat sözün ağzına sən,
Ondan ötrü ki, ləvənd zatınızı çoxdu' görən,
Şərhü təqrir, nə hacət ki, qılım bir dəxi mən,
Siz bizim əsl ilə gəlməzsiniz, ey eşşək, tən,
Urmuşuz ruzi-əzəl başınıza noxtani.
Görməyən kimdir olarnan sizi fərmanında,
Duşbərduş sərasər dərü divarında,
Üzüqoylu sürünən dəhlizü eyvanında,
Zatınız zatımızın eylə gəzib yanında,
Necə kim, it görücək sahibini şərmani.
İstəmən bir də bu bədkarü bədətvarı görüm,
Tündxü, fahişəru, biqəmü biarı görüm,
Bihəya, bisərü pa səxt, dilazarı görüm,
Nistü nabud eləsin tezlik ilə tarı görüm,
Zatımız adını hər yerdə deyib lovğani.
həqqi dilgir edəni həqq özü dilgir eylər,
Bəzinə tezlik ilə, bəzisinə dir eylər,
Bəddua adəmə axır belə təsir eylər,
Pənah, allaha pənah kgr necə təqrir eylər,
Əliyar oğlu belə sarı səkil madyani.
Mən sizə dəyməz idim, sən məni məcbur etdin,
Xaneyi-söhbətimi tazəcə məmur etdin,
Əmiraslan idi mənzur, onu dur etdin,
Bilməzəm heç sən, ey Xuli, nə mənzur etdin –
Ki, bu boş başına açdın bu böyük qovğanı.
Mən idim həcv qılan elləri mundan əvvəl,
Yox idi həddi mənimlə tuta bir kimsə cədəl,
Qocalıq indi salıb gülşəni-eyşimə xələl,
Anlayıblar ki, bu işdən usanıb çəkmişəm əl,
hər qoduq cevlan edər, xali körüb meydani.
Bir belə şüğli xudadən mən özüm istərdim,
Ta məkər cuşa kələ küreyi-diki-sərdim,
Şükrlilləh ki, bu dürd oldu dəvayi-dərdim,
Bir neçə bənd sərasimə yazıb göndərdim,
Ki, əcəl versə aman dalı gələr tulani.
Bilmişəm bişərəf ustadını danmaq olmaz,
Yüz danışsa, sözünün birini qanmaq olmaz.
Rəsmdir onlara oğraşlıq, utanmaq olmaz,
Dəxi bundan belə əl çəkmək, usanmaq olmaz,
Qıl xəbərdar anı, ta kim, tanısın Babani.

MİRZƏCANIN ÖLÜMÜNƏ

Qoşma Mirzəcan bəy Mədətova həsr olunmuşdur)

Dünya, sənin etibarın yox imiş,
Bir xəbər ver, Mirzəcanı neylədin?
Neçə bəylər ilə, neçə xan ilə
Göftarı xoş, əhli-canı neylədin?
Neçə şəhr üstünəcəng edib savaş,
Cari olub sel yerinə qanlı yaş.
Fələk, etdin taci-təxtini taraş,
Nökər, nayib, xanimanı neylədin?
Puç dünya, səndə bir yaranan hanı?
Günbəgün artırdın şövkəti, şanı,
Tiflisin sağ əli, sərdarın canı,
Viran qoyub Dağıstanı, neylədin?
O fələkdir göyü, yeri dağlayan,
Əzəl şad eyləyib sonar ağlayan,
Sinəsində şer kitab bağlayan
Sahibi-huş, gövhər kanı neylədin?

**QOŞMALAR**

QASIM BƏY ZAKİRƏ

Zakira, eşitdim tazə bir xəbər,
həqiqətdə qoydu məni xeyli mat,
Zahirən ki, seçirlərmiş Qalada.
Tərəf-tərəf olub bəylər deputat.

Əvvəl söhbət olub aralərində,
Kimi dayaz gəzib, kimi dərində,
Hər kimin yox imiş əqli sərində
hərzəguluq edib, danışıb ifrat.

Çağırıb ediblər hamıya xəbər,
Yığılıb bir yerə tamam sərbəsər,
Kimi həfra deyib, kimi xeyrü şər
Aralıqda olub söhbət biisbat.

Görübdülər söhbət sığmaz otağa,
Yığılıblar, ordan gediblər bağa;
Kimi yuxarı deyib, kimi aşağa,
Bu mənzildə müncər tapıb ixtilat,

Sonra baxmayıblar haqqa, insafa,
Basıbdırlar sözü lafa, gəzafa,
Ta ki ərz edəndə işi qrafa,
Çıxarıb onları otaqdan saldat.

Bir parası mümtaz edib Camali,
Qədimi adamdır, hər işdən hali,
Bir parası deyib yoxdur kəmali,
Rəhim bəydir edən həlli-müşkülat.

Biri deyib var Camalın tədbiri,
Rəhim bəyi görüb şayəstə biri,
Göndəriblər Rəhim bəyi, Nəsiri,
Get de naçalnikə, etmə ehtiyat.

Bu əhvalı bilən kimi naçalnik,
Oturarmuş, qeyzə gəlib, durub dik,
Deyib vəkillərə: "Sizin bu ellik,
Mən bilirəm olacaqdır vinavat".

Deyirəm sizlərə, söz budur həmin,
Yetişməz bir yerə danışsalar min,
Bunda sonra adam olardan yəqin
Dəxi eşitməzlər müdamül-həyat.

Yığılıban o gün tamam oldu car,
Qarabağda olan sahibixtiyar
Qarışıblar bir-birinə nə ki, var,
Guya ki, olubdur ruzi-ərəsat.

Kimisi dəvanı yetirib minə,
Kimisi qoymayıb bir adam dinə,
Kimisi deyirmiş qəynətəsinə:
Çaşıbdır tədbirin, get, evində yat!

həfra urub tamam büzürgü kuçək,
Kimi yalan deyib, kimisi gerçək,
Naçalnik arada qalmış imiş tək,
O heysü bəhsdə gəlib qubernat.

Çinovniklər işdən olan tək hali,
 Deyib qubernata tamam əhvali,
Sordu: - Kimdir edən bu qalmaqali?
Dedilər: vardır bir neçə qəllat,

O sən görən sahibnişan bəylərin,
Dövləti həddindən aşan bəylərin.
İndi tədbirləri çaşan bəylərin
Əhvalına ağla, olmuşlar əbbat.

Gör hara çəkiblər bu keşakeşi,
Qalmayıbdır vilayətdə bir kişi,
Yetiriblər o gün bir yerə işi,
Gəlib tamaşaya tamam türkü tat.

Müxtəsər ki, düşüb hər biri çəngə,
Satıblar kişilər imanı dəngə,

Oluban müstəğrəq əsbabi-cəngə,
Kimi qılınc çəkib, kimi minib at.

hər birindən gəlib bir tövr səda,
Kimi deyib: adam kimdir dünyada,
Kimi laf urub ki, mənəm bəyzada,
Olmuşam çinovnik, göstərib isbat.

Yoxdur ehtiyacım badəyə, bəngə,
Külli-Dağıstanı gətirdim təngə,
O mənəm ki, hər vəqt girəndə cəngə,
Qorxumdan cəngələ girərdi həmzat.

Tamam Qarallarda olmuşam məşhur,
Qoymanam ki, qalsın işimdə qüsur,
Bir tövr danışır guya ki, budur
Hakimi-Qəndəhar, sultani-Herat.

Gör necə kişilər keçib əməldən,
Tərəfi-üqbanı salıblar əldən,
Bu qədər davadan, cənkü cədəldən
heç birinə nəf olmayıb bir manat.

Olmayıb o vədə neçə kardan,
Deyə var bu sözdən sizlərə nöqsan,
Elə danışırlar hərzəvü hədyan,
Guya ki, kişilər yeyibdir batbat.

Qubernat gedəndən sonra Şirvana,
Eyləyib bir para söhbəti-cana,
Dağılıban gedib hərə bir yana
Qalıb müvəqqətdə nəzmi-ümurat.

Bir deyən olmayıb bu pis əməldir
Eyləməyin, dövlətnizə zərərdir,
Cəngəlməkan Zülfəlidən xəbərdir,
Yekdir Qarabağda kişidən övrat.

Sən deyirdin bunlar seçilməzlər ağ.
Bir-birilə, hələ uşaqsan, uşaq,
Qarabar bəyləri olmaz ittifaq,
Mən demədim sənə kərratü mərrat?!.

Vilayətdə urus olub ixtiyar,
Eyləyib bir bina yoxdu görən kar,
Tamam işlər olub cahilə bazar,
Heyif bu vilayət, heyhatü heyhat!..

Birisi var, min söz danışır cana,
Özünü bərabər tutmayır xana,
Bir tövr çirmənib girib meydana,
Guya çarpışmağa gəlibdir Nabat.

İş mühəvvəl olub oğul-uşağa,
Getməsin xəyalın özgə sayara,
Uca, şanlı bəylər düşüb torpağa,
Olubdur dənilər alidərəcat.

Olub kari-aləm bir özgə sayaq,
Dolanıb qərinə, olub baş-ayaq,
Qırqovulplova eyləyir damağ
O kəslər ki, tapmayırdı içalat.

İndilər görünən bir özgə kardır,
Hər bəni-adəmin bir fikri vardır,
hər kim ki, mızıdır, mərdümazardır,
Görüm puça çıxsın, tapmasın nicat.

Mülki-Qarabağda tapmayıb çörək,
Gəzincə aradə misali-dəllək,
Dəli şeytan deyir, sən də Daşdı tək
Bir göyçək gəlin tap, ərindən boşat.

Qılıncının dəstəsindən qapgilən,
Axtar bir iş özün üçün tapgilən,

Qurd Zaman tək vilayəti çapgilən,
Sən də ver hər zaman Tiflisə qəzzat.

Mən özüm övladi-Pənahalıyam.
Keçən qəziyyədən yeksər halıyam,
Tamam aləm tanır Sarıcalıyam,
Nə kürdəm, nə ləzgi, nə türkəm, nə tat.

Külli-Qarabağa olub mehriban,
Götürdükcə dövlət eylədi ehsan,
Bizlərə düşəndə xani-alişan
İşıqlı dünyanı eylədi zülmat.

Uyubdurlar bir yalançı hərzəyə,
Çalır hər yetəni, dönüb gürzəyə,
Onun üçün başmaqçıya, dərziyə
Dəxil düşər bəylər əlində sövqat.

Bir neçə övliyə olub ixtiyar,
Onu da xəbərdar edib xəznədar,
Əvvəl-axır dörd biməsrəf evim var,
Onu da söhbətə salıbdır palat

Bu əyyamın yoxsulu da, bəyi də
Deyildir qoyublar bu bir qayidə,
Belə hədyan sözdən nədir fayidə?
Axır, sözdə gərək olsun həsənat.

Yəqin olsun sənə mən ölüm nəmək,
Süfrə sənindir, nə lazım deməmk,
Bu sözlərin qiymətidir bir qəpək.
Məbada durasan, alan olsa, sat!

Az qalıbdır çıxsın əflakə nalə,
Rəiyyətmi dözər bu alhaalə,
Edənlər artırıb elə həvalə,
Çapar xana qızıl pulu təhmilat.

Gərək o söhbəti, qiylüqali mən,
Bilməmişdim, imdi oldum hali mən,
Yazıban müfəssəl bu əhvalı mən,
Göndərim Pitera gedəndə qüzzat.

Yoxdur ərzə yetib eyləyən divan,
Oğru vilayəti eylədi viran,
Çıxıb əldən qalan yekə Lənbəran,
Çapılıbdır yeksər Hindarxı, Bayat.

Kişilər var idi xan əyyamında,
Əyləşmişdi hər kəs öz məqamında,
Beş yüz nəf olurdu hər kəlamında.
handa idi onda belə həşərat.

O cümlədən biri Molla Kəlbəli,
Duz yeyən Xanməmməd hər işdən hali,
Əfşar Mirzə Təqi, Şeyx Dünyamalı,
Məsləhət görərdi daimül övqat.

Giryədir sənəti daim Məhzunun
Badiyədir mənzilgəhi Məcnunun,
Beylədir adəti bu dəhri-dunun,
Kimidə toy olur, kimidə xeyrat.

Çünki tuli-süxən olur dərdisər,
hər kim ki, oxur, eyləsin əzbər,
Ondan ötrü bunu yazdım müxtəsər,
Sonra məlum olur baqiyi-mehmat.

Şakira, sal əldən bu ixtilatı,
Cihazla bəiri, yəhərlə atı,
Gəldi əcəl peyki, gətir sovqatı,
Həngami-səfərdir, axtarma həyat.

**TƏRİQƏT ŞEYXLƏRİNİN HƏCVİ**

Ey alimi-Şəki, arifi-Qazağ,
Təmami-əhli-Ərəş, sakini-Bozdağ.
Əfəndi yeksər qibleyi-Ağdaş,
Özün fisq əhlinə eyləyən yoldaş,
Əqsami-bəy, ağa, nayibi-sultan,
Məlikü kədxuda, koxa, süxəndan,
Aqilü cahilü pirü cahandid,
Ustadü şagirdü mürşidü mürid.
Qulaq asın, ərz eləyim bir cavab,
Şair sözü deyib etmin ictinab.
Yığılıb bir yerə olan dəmdə cəm,
Açıban oxusun onu bir adəm.
Amma dürüst məsmu edin, siz allah,
Eylə ki, mətləbdən oldunuz agah,
hər kimin ki, dürüst dərsi var isə,
Elmi-həqiqətdən xəbərdar isə,
Mənim cavabımı o desin filhal,
Bir məqul adamdan eyləsin irsal,
Əvvəla dünyanı xaliqül-əşya,
Bir zərrə gövhərdən eylədi peyda.
Ondan xəlq eylədi can İbni-ÇCnı,
Onlar ilə şən eylədi dünyanı.
Uzun müddət dürlü nemət yedilər,
Aldanıb dünyaya "mənəm" dedilər.
Təqdiri-qəzadan dönüb dövrani,
Türfətül-eyndə oldular fani.
Bir ovuc torpaqdan yarandı Adəm,
Cənnətül-məvadə əziz, mükərrəm
Fayda verməz sonra olmaq peşiman,
O uzun axmağı aldatdı şeytan.
Əmri nəhi eyləyib çıxdı cənnətdən,
Bəla nazil oldu sahib izzətdən.
Bir buğdadan ötrü ağladı yüz il,
Öləndə də getdi dünyadan xəcil.
Müxtəsər, axırda gəldi peyğəmbər,
Nur ilə aləmi qıldı münəvvər,
Təmam dərmandənin dərdinə əlac,
Şayisteyi-mənbər, layiqi-merac
Onun xoşluğuna yarandı əflak,
Ovsafına gəldi "lövlak", "lövlak".
hər kim xəbər alsa ondan bir məsəl,
Ol vəqtə qalırdı matü məəttəl.
Taki yerdən göyə baizni-cəlil.
Cavabını gətirərdi Cəbrail.
Bunların heç biri mizan qurmadı,
Allahın sirrinə əl aparmadı.
Bir fəsad əhlinin. axmaq camaat,
Dalısına düşüb dersiz həzərat.
Veribdirmi tanrı Quranda xəbər,
Gələcək bir həzrət bədi-peyğəmbər?

Əyləşib Ağdaşda həzrəti-övbək
Sirri-xəfiyyatdan danışır tək-tək.
Yığıbdır üstünə bir neçə zəvvar,
Ziyarəti-Kəbə edə ixtiyar.
Atlanıb Ağdaşdan misali-dəllək,
Düşübdür Qarxuna həzrəti-özbək.
Haçı bəyin şeytan düşüb xaşına
Əshabü əqrəbasın yığıb başına.
Tamam yerbəyerdən yəhərlənib at,
Götürüb dörd qoyun, bir para sovqat.
Rzaqulu bəydən görək nə hasil,
Hüzuri-həzrətə olanda vasil,
Atlanıb Qarxundan düşübdür yola,
Yoldaşları bilir nə mənzil ola.
Gecə cəzb olub şeyxin sarığı,
Bir də bizim kor Məhmədin çarığı.
Bilmənəm gerçəkdir, yainki hənək,
Qarxunda cəzb olub bir saxsı sənək.
Gər böylə olsa qabdan-qacaqdan,
Dürüst müqəyyəd olun qafil bucaqdan.
Cəzb olub dağılır hərə bir yana
Necə ki, bu köpək tutanda dana,
Görməmişdik, çünki əsil zatını,
Cəzb olmaqdan qeyri möcüzatını.
Möcüzat bilirsə, eyləsin isbat,
Cəzb hərə deyil çəndən möcüzat.
Dovşan tutmasına olmanıq razı,
Bizim yerdə tutar dovşanı tazı.
Bundan əvvəl eşitmişdik bir kərə,
Sünnilər yığılıb çəkərlər hərə.
Bir-bir gördükcə etdik imtahan,
Ataların sözü olmazmış yalan.
Şirvanda çıxıb bir şeyxi-sünni,
Kimi dəli deyir, kimisi cinni.
O da orda adın qoyub Şeyx Əyyub,
Qudurub çiyninin ətini yeyib.
Yığıbdır üstünə bir bölük adəm,
Səhranın dəlisi, tamam əqli kəm.
Ta axşam olunca olarla dəli,
Kiminin dirsəki sıyrılar, kiminin əli.
Yaxa açıb çıxarlar axşam oyundan,
Cütçü cütdən qalar, çoban qoyundan.
Kasıblıqdan qalır fəqir, füqəra,
Belə işdən nə qoyarlar dağara.
Sizə faiq olu, hər kim ki, gəli,
Bilmənəm əhməqsiz, yainki dəli.
O nə yolnan adın qoyubdur həzrət.
Nayib hörmətilə olub biizzət.
Qurubdur cühuda mizan-tərəzi,
O köpək oğlunun nədir qərəzi?
Başına yığıb bir-iki tüllabi,
Təmam haramzadə, təmam qüllabi.

Cümədən cüməyə durub gedərlər,
Əhli-qübur ziyarəti edərlər.
Biri deyir bu qəbir kimindi, yarəb,
Ki, verirlər buna bu qədər təb.
Cəhənnəm oduna alışıb yanır,
Fəqir olu yiyəsi də inanır.
Düşüb əyağına deyir: - Ay molla,
Var isə əlacın eylə sən, alla.
O da müddət sükut edər ixtiyar,
Gəlir təkəllümə eyləyir izhar.
Deyir: - Get gör xeyrat ehtiyatini,
Düyüsünü, havaçını, ətini.
Bişir gətir, tələbələr yesinlər,
Əllərin götürüb amin desinlər.
Bular ki, yeyərlər sizin xeyratı,
Bağışlanar ölünün hər siratı.
İnanıb bu sözə gedən qurumsaq,
Malının dəlisi, beyinsiz sarsaq.
Mən buların hansın yazım kağıza,
Bir söz deyil almaq ola ağıza.
İstərsiz biləsiz fərzi-sünnəti,
Bir məqul adamdan çəkin minnəti.
Abdulla əfəndi açsın oxusun,
Həll eləsin müşkülatın çoxusun.
Əmrü nəhidən desin, söyləsin,
Qafil olanları huşyar eyləsin.
Mürşidi-kamildi, mərdi-aqildi,
Onu cahil bilən ezü cahildi.
hər ölkədə şöhrəti var, adı var,
Bizlərin də ona çox etiqadı var.
Mən bilirəm bu sezləri qanmazsız,
Səbadən doğruya heç inanmazsız.
Əlbəttə, tifaq düşəydi bədi,
Bu beyti kitabə yazıbdı Sədi.
Pərtövi-nikan nəgirəd hər ke bonyadəş bədəst,
Tərbiyət naəhlra çon kerdegan bərqonbədəst.